**https://doi.org/10.58225/tim.2025-1-453-461**

**K.M.Vəliyeva**
***doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti***
***ORCID 0009-0001-2497-2985***
***Konul-Valiyeva@unec.edu.az***

*Məqalə redaksiyaya daxil olub 30.01.2025*
*The article was received by editorial board on 30.01.2025*
*Статья принята к печати 30.01.2025*

# QARABAĞ İQTİSADİ RAYONUNDA TURİZM POTENSİALININ YAXŞILAŞDIRILMASINDA DÖVLƏT DƏSTƏYİNİN ROLUNUN ARTIRILMASI

**Xülasə**

*Qarabağ iqtisadi rayonunun turizm potensialının yaxşılaşdırılmasında dövlət dəstəyinin rolu mühüm əhəmiyyət kəsb edir. Dövlətin həyata keçirdiyi infrastruktur layihələri, turizmə dair hüquqi və vergi təşviqləri bu sahənin inkişafını sürətləndirir. Xüsusilə, ərazilərin mədəni və tarixi irsinin qorunması və təşviqi, həmçinin turizm marşrutlarının yaradılması turizmin cəlbediciliyini artırır. Eyni zamanda, mədəniyyət və tarixə əsaslanan turizm proqramlarının dəstəklənməsi regionun iqtisadi inkişafına mühüm töhfələr verir. Dövlətin regiona yönəldilən maliyyə vəsaitləri, yerli əhaliyə iş imkanı yaradılması və ekoturizm kimi yeni sahələrin inkişafı Qarabağda turizmin daha da genişlənməsinə şərait yaradır. Tədqiqatın gedişində müşahidə, müqayisəli təhlil, induksiya və deduksiya metodlarından istifadə olunur. Məqalənin sonunda nəticələr qeyd olunmuş, mövzu ilə bağlı təkliflər irəli sürülmüş və tədqiqatda istinad olunan ədəbiyyat icmalı qeyd olunmuşdur.*

***Açar sözlər:*** *turizm, dövlət dəstəyi, turizm sahələri, infrastruktur, Qarabağ.*

## GİRİŞ

Turizm sektoru sosial-iqtisadi və ekoloji məsələlərdə ölkəyə mühüm töhfələr verən və daim inkişaf edən bir sahədir. Bir çox digər sahələrlə inteqrasiya oluna bilən turizm sektoru, yenilənən və inkişaf edən strukturu ilə daim maraq mərkəzində qalır. Bu inkişaflarla yanaşı, turizm istiqamətləri də fərqlilik göstərməkdədir və müxtəlif turizm növlərinə olan tələbat artmaqdadır. Turizm hər keçən gün dəyişən, çeşidlənən və yeni imkanlar təqdim edən bir sahəyə çevrilmişdir (Kavaklı E., Karakaş A., 2022: s.25).

İşğaldan azad edilmiş ərazilərin də unikal təbii şəraiti, burada müxtəlif turizm istiqamətlərinin inkişafına imkan verir ki, bu da turizmin mövsümi xarakterini aradan qaldıraraq, həm xarici, həm də yerli turist axınlarını ilin bütün dövrü boyunca qəbul etməyə imkan verir. Son dövrlərdə qum, dəniz və günəş tətilinə alternativ olaraq, turizm seçimləri arasında yer alan və Qarabağ bölgəsində əhəmiyyətli potensiala malik mədəniyyət turizmi də diqqət mərkəzindədir. Bu, fərqli sivilizasiyaları, ənənələri və məkanları kəşf etməyi əhatə edən fəaliyyət növüdür (Aytuğ və b., 2020: s.720; Wang və b., 2010: s.5).

Dünyada özünəməxsus mədəni irsə malik müxtəlif turizm məkanları mövcuddur. Azərbaycanın Qarabağ bölgəsi də zəngin tarixi və mədəni irsi ilə mədəniyyət turizmi üçün mükəmməl bir istiqamət kimi ön plana çıxır. Regionda yerləşən turistik məkanlar və mədəniyyət abidələri, turistlərə bölgənin zəngin tarixini və mədəniyyətini kəşf etmək imkanı yaradır. Bundan əlavə, Azərbaycan xalq memarlığı, milli mətbəxi, əl sənətləri və musiqisi də turistlərin maraq göstərdiyi mühüm elementlər sırasındadır (Seferov R., Hesenov T., 2006: s.263).

Qarabağ bölgəsi həm Sovetlər dövründə, həm də ondan əvvəlki dövrlərdə mühüm bir mədəniyyət mərkəzi kimi tanınmışdır. Sovet İttifaqı dövründə turizm geniş yayılmasa da, 1987-ci ildə bu bölgəyə gələn turistlərin sayı 250 min nəfərə çatmışdır. Onlardan 200 min nəfəri SSRİ-nin digər respublikalarından, 50 min nəfəri isə xarici ölkələrdən gəlmişdir (Cabbarov və b., 2020: s.38).

Birinci Qarabağ müharibəsindən sonra isə bölgə qeyri-qanuni şəkildə ziyarət olunmağa başlanmışdır. Erməni mənbələrinin məlumatına görə, 2005-ci ildə 4 min, 2010-cu ildə 8 min, 2015-ci ildə 16 min 589, 2019-cu ildə 41 min 963 və 2020-ci ilin İkinci Qarabağ müharibəsinədək olan dövründə isə 2 min 500 nəfər bölgəni ziyarət etmişdir. Turistlərin gəldikləri ölkələrə baxıldıqda, ilk sıralarda Ermənistan, Rusiya, Fransa, ABŞ, Gürcüstan və İran kimi ölkələr yer almaqdadır. Ümumilikdə isə dünyanın müxtəlif 80 ölkəsindən olan turistlərin bu bölgəyə səfər etdiyi məlumdur (Golunova S.V., Zotova M. V., 2021: s.702–703).

Göründüyü kimi, bölgədəki turizm potensialı bir çox ölkələrdən turist cəlb etmək gücünə malikdir. Lakin bölgənin işğal altında olduğu dövrdə buranın ziyarətinin qanuni olmaması, turist sayının yüksək olmamasına səbəb olmuşdur. Qarabağ bölgəsində idarəçiliyin Azərbaycanın nəzarətinə keçməsi ilə bölgəyə səfərlə bağlı məhdudiyyətlər və çətinliklər aradan qalxmışdır. Qarşıdakı illərdə bu istiqamətə gələcək turistlərin sayında əhəmiyyətli artımın olacağı proqnozlaşdırılır (Aliyev J., Kızılırmak İ., 2023: s.88)

Regionda turizmin inkişafı, özünün multiplikativ təsiri sayəsində, turizmə aid olan əlaqəli sahələrin inkişafına da güclü təkan verərək Qarabağın bərpasını sürətləndirə və onu Cənubi Qafqaz regionunun qabaqcıl turizm məkanı halına gətirə bilər. Həmçinin qeyd etmək lazımdır ki, bu nəticə yalnız dövlətin aktiv tənzimləmə tədbirləri sayəsində deyil, həm də yerli biznes icmasının və xarici investorların fəal iştirakı sayəsində əldə edilə bilər. Həm xarici, həm də yerli investorların cəlb edilməsi, Qarabağda turizmin inkişaf tempini artıra və eyni zamanda, işğaldan azad edilmiş regionun bərpa sürətinə müsbət təsir göstərə bilər.

**Qarabağ iqtisadi rayonunda potensiallı turizm sahələri.**

Qarabağ bölgəsində, yaşayış imkanlarını təmin etmək məqsədilə otellərin inşası həyata keçirilməkdədir. Xüsusilə, Şuşa şəhərində inşa edilmiş otellər yüksək keyfiyyətli xidmət göstərmək üçün bir çox imkanı özündə cəmləşdirir. Burada konfrans zalı, görüş otaqları, restoranlar, mağazalar, dayanacaqlar və digər zəruri infrastruktur imkanları qonaqlara təqdim olunur. Eyni zamanda, Zəngilan və Ağdam kimi rayonlarda da otel müəssisələrinin inşası həyata keçirilmişdir. Bu cür infrastruktur xidmətləri qurulduqdan sonra artıq bu bölgəyə turlar təşkil edilməyə başlanmışdır. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təşkil etdiyi bu turlarda, bölgənin təbii gözəllikləri, mədəniyyət abidələri və digər turizm məhsulları turistlərə təqdim edilir (Aliyev J., Kızılırmak İ., 2023: s. 89)

İşğaldan azad olunmuş ərazilər üçün perspektivli hesab olunan turizm istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Mədəniyyət turizmi;
- Sağlamlıq turizmi;
- Ekoloji turizm;
- Qış turizmi.

**Mədəniyyət turizmi.** İşğaldan azad olunmuş bölgələrdə ən potensiallı turizm növü hesab oluna bilər. Şuşa şəhəri haqlı olaraq Qafqazın konservatoriyası, Azərbaycan mədəniyyətinin beşiyi adlandırılır. Şuşa, Azərbaycan mədəniyyətinin mərkəzi sayılır. Şəhərin azad edilməsindən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyev onu ölkənin mədəniyyət paytaxtı elan etmişdir. Burada çox sayda mədəniyyət abidəsi yerləşir və bu abidələr yalnız turizm baxımından deyil, həm də iqtisadi cəhətdən bölgənin bərpasında mühüm rol oynayır. Burada yerləşən Gövhərağa Məscidi, Əsgəran Qalası əhəmiyyətli mədəni irs nümunələrindən biri olmaqla bərabər mədəniyyət turizminin də vacib parçalarıdır. (Aliyev J., Kızılırmak İ., 2023: s. 89-90)

Mədəniyyət turizmi əhəmiyyətli nümunələrindən bir digəri Ağdam Çörək Muzeyidir. Muzey, keçmiş SSRİ-də ilk qəbul edilən və dünyada ikinci olan bir muzeydir. Muzey 25 noyabr 1983-cü ildə açılmışdır və SSRİ dövründə böyük maraq görmüşdür. Muzeydə daşlaşmış taxıllar, əl dəyirmanları, köhnə kitablar və kənd təsərrüfatı alətləri kimi müxtəlif nümunələr mövcud idi. Muzey fəaliyyətə başladıqdan sonra təxminən 300 əsər, ziyarətə gələn xarici qonaqlar tərəfindən hədiyyə edilmişdir. Birinci Qarabağ müharibəsi zamanı bəzi əsərlər muzeydən götürülərək Azərbaycan Tarix Muzeyinə bağışlanmışdır. Lakin 1992-ci ildə ermənilər tərəfindən muzey

tamamilə dağıdılmışdır. İkinci Qarabağ müharibəsindən sonra azad olunan Ağdam rayonunda muzeyin yenidən qurulması planlaşdırılır (Aliyev J., Kızılırmak İ., 2023: s. 90).

İşğal dönəmində Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan tarixi irsinə vurduğu ziyanı nəzərə alaraq, ölkə hökuməti regionun tarixi və mədəniyyət abidələrinin bərpası və restavrasiyası üçün fəal tədbirlər görməyi qərara almışdır. Bu tədbirlər təhlükəsizliyin təmin edilməsi və bütün regionun mina təmizlənməsi tamamlandıqdan sonra həyata keçiriləcəkdir. Bu, xarici mütəxəssislərlə fəal əməkdaşlıq edərək abidələrin bərpa prosesini aparmağa imkan verəcəkdir.

**Sağlamlıq turizmi.** İkinci perspektivli turizm sahəsi, azad edilmiş ərazilərdə inkişaf edə biləcək sağlamlıq turizmidir. Qarabağ regionunda çox sayda müalicəvi mənbələr mövcuddur ki, bunlar sanatoriyalar və digər müxtəlif tibbi təyinatlı kurortların yaradılması üçün istifadə oluna bilər. Xarici təcrübə göstərir ki, turizm sahəsinin inkişafı böyük ölçüdə dövlət, sahibkarlıq icması və ictimai təşkilatların turizm müəssisələrinin fəaliyyətini təmin etmək üçün resurs təminatı sahəsindəki birgə səylərindən asılıdır.

Qarabağ ərazisində bir sıra müalicəvi mənbələr yerləşir, bunlara Kəlbəcərdəki "İstisu", Zəngilanda yerləşən termal mənbələr, Şuşadakı Turşsu və Şirlan mineral suyu və s. daxildir. Bu təbii müalicəvi obyektlər, regionda sağlamlıq turizminin inkişafında mühüm rol oynayır. Bu obyektlərin ətrafında infrastrukturun aktiv şəkildə bərpası və təkmilləşdirilməsi, ölkəyə böyük sayda turist axınının cəlb olunmasına kömək edəcəkdir. Qarabağ regionu, SSRİ dövründə öz sağlamlıq kurortları ilə ittifaq respublikaları arasında geniş tanınırdı və həmçinin çox sayda xarici turistləri cəlb edirdi (Халисламов Т.Э., 2022: s.67).

**Ekoloji turizm.** Ekoloji turizm, Birləşmiş Millətlər Təşkilatının davamlı inkişaf məqsədlərini qəbul etməsindən sonra bütün dünyada böyük populyarlıq qazanmağa başlamışdır. Çünki ekoloji turizm, turistlər arasında ekoloji təhsilin artırılmasına yönəlmişdir və həmçinin dünyamızın sərhədlərini yenidən kəşf etməyə kömək edir.

Ekoloji turizm, ilk növbədə, ətraf mühitin qorunmasına yönəlmiş fəaliyyət növüdür. Qarabağ regionu, özünəməxsus təbii landşaftlara sahibdir. Bu regionda turistlər həm təbiətə gəzintilər (hiking) edərək unikal təbii obyektləri ziyarət edə bilər, həm də bu ərazinin dağ zirvələrinə dırmanış təşkil edə bilərlər. Bu cür turları təşkil etmək üçün yüksək ixtisaslı mütəxəssislər tələb olunur, çünki onlar turistlər üçün təhlükəsiz marşrutlar qurmalıdırlar və beləcə turistlər Qarabağ meşələrinə gedərək dağ zirvələrini təhlükəsiz şəkildə fəth edə bilərlər. Həmçinin, uyğun infrastrukturun (düşərgə yerlərinin təşkil edilməsi, ərazinin işarələnməsi, təhlükəsiz yolların çəkilməsi və s.) qurulması və yüksək ixtisaslı kadrların hazırlanması böyük əhəmiyyət kəsb edir.

Ekoloji turizm, ətraf mühitin qorunması üçün iqtisadi stimullar yaratmaq məqsədi daşıyır. Azərbaycan Respublikası və xüsusilə Qarabağ regionu, Dünya Turizm Təşkilatı (DTT) tərəfindən ekoloji turizmin inkişafı üçün perspektivli bir bölgə olaraq qiymətləndirilir. Ekoloji turizm gələcəkdə üç əsas istiqamətdə inkişaf etməlidir: təbiət və mədəniyyət turizmi, reabilitasiya turizmi və istirahət turizmi (Халисламов Т.Э., 2022: s.67).

**Qış turizmi.** Azərbaycanın qış turizmi sahəsində uğurlu təcrübəsi var, xüsusilə dağ xizək kurortlarının yaradılması ilə bağlı. “Şahdağ” və “Tufandağ” dağ xizək kurortları, müvafiq dağ zirvələrinin ətəklərində yerləşir və bu kurortlar həm yerli turistlər, həm də xarici turistlər arasında böyük populyarlıq qazanmışdır. Qış turizminin Qarabağda inkişafı, regionun turizm sektorunu əvvəlcə milli səviyyədə, sonra isə qlobal turizm bazarında möhkəmləndirə bilər.

Lakin Qarabağda qış turizminin inkişafını məhdudlaşdıran bəzi amillər mövcuddur. Bu amillərdən biri müvafiq infrastrukturanın olmamasıdır. Qış turizmi üçün müasir infrastrukturun qurulması, turistləri daha tez qəbul etməyə imkan verəcəkdir. Eyni zamanda, minalanmış ərazilər məsələsi hələ də problemlər yaradır, çünki bu, regionun turizmə hazırlanması prosesini çətinləşdirir. Minaların təmizlənməsi uzun vaxt alır və turistlərin təhlükəsizliyi təmin olunmadan regionun tam bərpası mümkün olmayacaqdır. Turistlərə yüksək təhlükəsizlik səviyyəsinin təmin edilməsi, həm xarici, həm də yerli turistləri cəlb etmək üçün əsas prioritetlərdən biridir.

Buna baxmayaraq, Qarabağda mövcud olan dağ zirvələri bu regionda bir neçə dağ xizək kurortunun yaradılmasına imkan verir ki, bu da Azərbaycanın bu turizm istiqamətində fərqlənən xüsusiyyətlərindən biri Ola bilər. Ermənistan işğalçı dövründə regiona böyük ziyanı uvulas da,

işğaldan azad edildikdən sonra regionun bərpası üçün fəal tədbirlər həyata keçirilir. Bu tədbirlər arasında infrastrukturun bərpası, turizmə uyğun olan ərazilərin hazırlanması və regionun qış turizmi potensialının tam istifadə edilməsi nəzərdə tutulur (Халисламов Т.Э., 2022: s.70).

**Qarabağ iqtisadi rayonunda turizm potensialının yaxşılaşdırılmasında dövlət dəstəyinin rolu.**

Turizmin inkişaf etdirilməsi daimi olaraq dövlətin diqqət mərkəzində olan məsələlərdən olmuşdur. Həyata keçirilmiş layihələr, proqramları belə deməyə əsas verir. Hazırda Dövlət Turizm Agentliyi işğaldan azad edilmiş ərazilərin turizm inkişafı və siyasəti üçün strategiya hazırlayır. Turizm məhsullarının inkişafı bu ərazilərdə turizm infrastrukturu inşası ilə paralel şəkildə həyata keçiriləcək: "Bunun üçün bir neçə komponent nəzərdə tutulmalıdır. Bunlardan ən vacibi təhlükəsizliyin təmin edilməsidir. Əhali geri qayıtdıqca, evlərin və infrastrukturların bərpası ilə yanaşı, turizm məhsulları yaradılacaq. Digər bir məsələ isə bu bölgəyə investisiyaların cəlb edilməsidir. Əvvəlcə nəqliyyat infrastrukturu, mülki infrastruktur və investisiya şəraitinin yaradılması nəzərdə tutulur" (https://tourism.gov.az).

Turizm sənayesi iki əsas bloka bölünür: birincisi, qonaqpərvərlik sənayesi və bu sahədə xidmət göstərən müəssisələr, məsələn, otellər, motelər, ictimai iaşə və s. İkinci blok, üç səviyyədən ibarət olan turizm infrastrukturunun tərkibini əhatə edir: birinci səviyyə - istehsalat infrastrukturu (istehsal binalarının, maşınların və tikililərin yaradılması), ikinci və üçüncü səviyyələr - turizm məhsulunun və ya xidmətinin formalaşdırılması ilə məşğul olan müəssisələr və təşkilatlar. Üç blokun kompleks şəkildə formalaşdırılması turizm sahəsinin diversifikasiyasını təmin edir, burada xüsusi diqqət turizm infrastrukturunun inkişafına yönəldilir (Миралиева А.Ш., 2022: s.48).

Son statistik məlumatlara əsasən, turizm Azərbaycan üçün ən sürətlə inkişaf edən sahələrdən biridir. Hələ 2017-2022-ci illər üzrə Azərbaycan turizm sahəsində fəaliyyət göstərən müəssisələrin və turizm məqsədilə gələn xarici vətəndaşların sayında mütəmadi artım müşahidə olunurdu, müvafiq olaraq, bu göstəricilər orta hesabla 4,5 və 8,5 faiz təşkil etmişdir. 2022-ci ilə olan statistikaya görə turizm sahəsinin ölkənin ÜDM-də və məşğulluqda birbaşa payı müvafiq olaraq 4,5 və 3,3 faiz idi. Müxtəlif illərdə turizm fəaliyyəti üzrə ümumi daxili məhsul istehsalı statistikası aşağıdakı sexmdə əks olunmuşdur:

Aşağıdakı sxemə nəzər saldıqda görürük ki, ÜDM-də turizmin payında 2020-ci ildə ötən illərə nisbətən böyük düşüş müşahidə olunsa da, elə həmin ildən etibarən davamlı artım qeydə alınıb. 2024-cü ildə ötən ilə nisbətən 212.9 milyon manat artım olduğunu görə bilərik. Bu isə 13 faizə yaxın artım deməkdir.

**Sxem 1. Turizm fəaliyyəti (turistlərin yerləşdirilməsi və ictimai iaşə) üzrə ümumi daxili məhsul istehsalı, milyon manatla**




***Mənbə:*** *Azərbaycan Dövlət Statistika Komitəsi, 2025. (https://www.stat.gov.az/source/system_nat_accounts/)*

Ölkə daxilində Qarabağ iqtisadi rayonunda yerli turist sayı üzrə dinamika isə aşağıdakı sxemdə əks olunmuşdur:

**Sxem 2. Qarabağ iqtisadi zonası üzrə yerli turist sayı**




***Mənbə:*** *Müəllif tərəfindən Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin məlumatları əsasında tərtib edilmişdir.*

Sxemdən göründüyü kimi region ərazisində turist sayı təkcə 2020-ci il istisna olmaqla davamlı artım nümayiş etdirib. Bu torpaqların işğaldan azad edilməsi və həmin ərazilərdə həyata keçirilən bərpa işlərinin nəticəsi olaraq qiymətləndirilə bilər.

Dövlətin Qarabağ regionunda turizm potensialının arıtılması üçün atdığı addımlara misal olaraq regionda yerli və xarici investisiyaların təşviqi, tarixi abidələr və ətraf mühitin bərpası, infrastrukturun inkişaf etdirilməsi ilə bağlı atılan addımlar, turizmin təşviqi və s. qeyd oluna bilər.

Azad edilmiş ərazilərin turizm imkanlarının ölkə xaricində tanıdılmasına artıq başlanılıb. Xarici ölkələrdə keçirilən tədbirlər çərçivəsində təşkil olunan görüşlər və vebinarlar vasitəsilə iştirakçılara Azərbaycanın, xüsusilə işğaldan azad edilmiş ərazilərin turizm imkanları barədə məlumat verilir.

Bundan əlavə, Dubayda keçirilən "Gulf Travel Show" sərgisində, Birləşmiş Ərəb Əmirliklərində, işğaldan azad edilmiş Qarabağ regionunun turizm potensialı barədə məlumat verilib və qeyd edilib ki, region müvafiq tədbirlər görüldükdən sonra yeni turizm istiqamətləri siyahısına daxil ediləcək. Azərbaycan Turizm Bürosu, həmçinin Londonda keçirilən dünya səviyyəli turizm sərgisi olan "World Travel Market" (WTM London2020) sərgisində iştirak edib. Virtual görüşlər çərçivəsində iştirakçılara Qarabağ və ətraf bölgələrin turizm potensialı barədə məlumat verilib. Qısacası, hal-hazırda Qarabağın turizm sektorunun dünyada, tanıdılması davam edir (Гафаров Н. Д., 2023: s.14).

Qarabağ, Azərbaycanın gələcək turizm mərkəzi kimi nəzərdə tutulur. Hazırda respublika qarşısında turizm infrastrukturunun genişləndirilməsi məsələsi durur. Hökumət, yerli və xarici şirkətlərə azad edilmiş ərazilərdə turizmin bərpası üçün otellərin, restoranların və digər müvafiq obyektlərin yaradılması barədə planlar hazırlamağı tapşırır.

Əlavə olaraq, vergi güzəştləri, regional turizmi cəlbedici edəcək və Qarabağdakı turizm infrastrukturunun inkişafına yeni impuls verəcək. Bölgənin potensialını nəzərə alaraq, Qarabağda turizm xidmətləri üçün ödənilən qeyri-nağd əməliyyatlarda 30%-lik ƏDV geri qaytarılmasının tətbiq olunması ilə bağlı atılan addımlar da dövlətin bu sahdə turizm potensialının artırılması istiqamətində gördüyü mühüm tədbir hesab olunur. Bütün bunlar turizmin inkişafına müsbət təsir edəcək (Тагиева А., 2022).

Dövlətin göstərdiyi dəstəyin əsas göstəricisi olaraq, 2022-ci ildə yalnız Qarabağa və Şərqi Zəngəzura qoyulan ümumi investisiyaların əvvəlki illərlə müqayisəsinə baxmaq olar. Bu göstərici demək olar ki, iki dəfə artıb. 2023-cü ilin sonuna qədər hökumət tərəfindən nəzərdə tutulan investisiya proqramı çərçivəsində bu ərazilərə qoyulan xərclərin 12 milyard manata çatması planlaşdırılırdı.

İqtisadiyyatın inkişafı və Qarabağın yeni infrastrukturu potensial olaraq biznes və investisiyalar üçün geniş imkanlar təqdim edir. Xarici və yerli sərmayədarlar burada turizm və digər sahələrdə geniş perspektivlər görürlər (Халилова Т., 2023).

Qarabağda turizm sektoruna dövlət dəstəyinin həyata keçirilməsinin bariz nümunəsi kimi torpaqların azad olunmasından sonra burada yeni və son tələblərə cavab verən otellərin inşasını göstərə bilərik. Aşağıdakı cədvəldə Qarabağ iqtisadi rayonunda işğal dövrü və sonrasına aid turizm statistikasına nümunələr qeyd olunmuşdur:

**Cədvəl 1**

**Qarabağın turizm statistikası**

| | **2015** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid | 4 | 7 | 11 | 14 | 14 |
| onlarda: | | | | | |
| nömrələrin sayı, vahid | 96 | 132 | 278 | 342 | 342 |
| birdəfəlik tutum, yer | 206 | 288 | 599 | 742 | 742 |
| yerləşdirilmiş şəxslərin sayı, nəfər | 1618 | 4175 | 12800 | 31487 | 36859 |
| keçirilmiş gecələmələrin sayı, gecə | 2014 | 4539 | 13772 | 33521 | 46116 |

***Mənbə:*** *Azərbaycan Dövlət Statistika Komitəsi, 2025 (https://www.stat.gov.az/source/regions/)*

Cədvəldən göründüyü kimi 2015-ci illə müqayisədə 2023-cü ildə burada mövcud otel sayı 3 dəfədən çox artıb. Buna uyğun olaraq nömrə, yer, otelləri ziyarət etmiş şəxslər və nəhayət gecələmə sayları da artmışdır.

Aşağıdakı sxemdə turizm müəssisələtrinin gəlir və xərc statistikası əks olunur:

Sxem 3. Qarabağda mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlir və xərcləri, min manat




***Mənbə:*** *Azərbaycan Dövlət Statistika Komitəsi, 2025 (https://www.stat.gov.az/source/regions/)*

Sxemə baxdıqda görürük ki, torpaqların işğaldan azad olunmasından sonrakı iki il ərzində Qarabağda mehmanxana və otellərin gəlirləri xərclərini üstələyib. Ən böyük fərq 597.1 min manat olmaqla 2022-ci ildə müşahidə olunub. Bu, həmin ərazilərdə turizmə dövlət dəstəyinin və bununla da turist ziyarətlərinin artmasının nəticəsidir. Turist axınlarının artması, ölkəyə xarici valyutanın

daxil olmasını da artırır. Bu, yalnız regionun iqtisadiyyatına deyil, ümumilikdə ölkənin iqtisadiyyatına da müsbət təsir göstərəcəkdir.

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**

Qarabağ, turizm sektorunun inkişafı üçün böyük potensiala malikdir, çünki bu region zəngin mədəniyyətə və tarixə sahibdir və tarixi abidələrin əksəriyyətinin bərpası ilə bölgə əvvəlki şöhrətini və turizm cazibəsini geri qaytaracaqdır. Qarabağın zəngin tarixi, turistlərə bu regionun gözəlliyini və unikallığını kəşf etməyə imkan verəcək müxtəlif turizm marşrutlarının yaradılmasına şərait yaradacaq və bu, ölkəyə turist axınının daha da artmasına kömək edəcəkdir. Qarabağ bölgəsində mədəniyyət turizminin inkişafı, regionda turizmin inkişafının prioritet istiqamətlərindən biridir. Bununla yanaşı sağlamlıq, qış turizmi, ekoloji turizm növləri də böyük potensiala malikdir.

Statistik məlumatların təhlili göstərdi ki, turizm ölkəninin iqtisadi artımında əhəmiyyətli rola malikdir. Təkcə 2024-cü ildə 2023-cü illə müqayisədə turizmin ÜDM-də payı 13 faiz artmışdır. Yalnız yerli turistlərin Qarabağa ziyarət statistikasına baxdıqda burda da hər il davamlı artım olduğunu görürük.

Turizm təşviq siyasətinə uyğun olaraq Dubayda, Londonda keçirilən turizm sərgilərində Qarabağ turizminin təbliği dövlət tərəfindən uğurla həyata keçirilmişdir. Bununla yanaşı dövlət dəstəyinn mühüm tərkib hissəsi kimi investisiyaların cəlbi, müxtəlif vergi güzəştlərinin tətbiqini də göstərə bilərik. Qarabağ bölgəsində 30% ƏDV məbləğinin geri qaytarılması ilə bağlı müxanizm buna misaldır. Qarabağda inşa edilən otellərin, qonaqların, burada gecələmələrin sayının artması həmin obyekt sahiblərinin gəlirlərinin artmasına, daha çox xarici valutanın daxil olmasına və nəhayət iqtisadi inkişafa mühüm töhfə verir.

Qarabağ iqtisadi rayonunda turizm potensialının yaxşılaşdırılmasında dövlət dəstəyinin rolunun artırılması mövzusuna uyğun olaraq aşağıdakı təkliflər irəli sürə bilərik:

- Turizmin daha da inkişaf etidirilməsi, turistlərin məmnunluğunun artırılması və loyallıq məqsədi ilə otel biznesi və səyahət xidmətləri sahəsində yerli təlim proqramlarının keçirilməsi;
- Turizmin effektiv inkişafı üçün bu sahədə hökumət və özəl investorlar arasında əməkdaşlığı təşviq etmək;
- Rəqəmsal platformalardan istifadə etməklə ziyarətçi təcrübəsini və idarəetməsini yaxşılaşdırmaq üçün Qarabağa aid səyahət tətbiqetmələri və ya veb saytların yaradılması;
- Turizmə daha çox investisiya qoymaq üçün işgüzar mühitin daha da inkişafı etdirilməsi;
- Turizm təcrübəsini genişləndirmək üçün regional sənətkarlıq məhsullarının təbliği;
- Davamlılıq və problemlərin həlli üçün turizm sektorunu mütəmadi olaraq qiymətləndirilməsi.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Aliyev J., Kızılırmak İ. (2023). “Azerbaycan’ın Karabağ Bölgesinin Kültür Turizmi Açısından İncelenmesi”. Uluslararası Turizm ve Araştırma Dergisi, Sayı: 2, ss. 84-103.

**2.** Aytuğ K., Eryılmaz Ç., Uçar S., Can O. (2020). “Sinop ilinin alternatif turizm çeşitleriaçısından SWOT analizi”. Karadeniz Araştırmaları Dergileri, Sayı: 17(67), ss.715-736.

**3.** Cabbarov A., Abbasova S., Tanrıverdi H. (2020). “Ermeni işgali sonrası Karabağ'da turizmin gelişme sorunları”. Uluslararası Turizm, İşletme ve Ekonomi Dergisi, Sayı: 4(2), ss. 33-44.

**4.** Golunova S.V., Zotova M.V. (2021). “Incomıng tourism in the post-soviet de-facto states”. Geographical Series, Vol: 85(5), pp. 699-713.

**5.** Kavaklı E., Karakaş A. (2022). “Turizmin bölgesel kalkınmaya etkisi üzerine bir inceleme”. Bartın Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Sayı: 13(25), ss.37-50.

**6.** Seferov R., Hesenov T. (2006). “Azerbaycan'ın turizm potansiyeli ve turizm etkinliklerinin değerlendirilmesi”. Türkiyat Araştırmaları Dergisi, Sayı: 20, ss. 255-272.

**7.** Wang S., Fu Y.Y., Cecil A.K., Avgoustis S.H. (2010). “Cultural tourism and quality of life: results of a longitudinal study”. European Journal of Tourism Research, Vol: 3(1), pp. 54-66.

**8.** Гафаров Н.Д. (2023). “Развитие туризма на территориях Азербайджана, освобожденных от оккупации”. Regional Economy, Vol. 147, pp. 9-17

**9.** Миралиева А.Ш. Оценка и анализ инвестиционного и инновационного потенциала карабахского экономического района. Азербайджанский Государственный Экономический Университет, Баку – 2022, 82 С.

**10.** Тагиева А. (2022). Как Азербайджан превращает Карабах в рай для инвесторов. (https://az.sputniknews.ru/20221116/kak-azerbaydzhan-prevraschaet-karabakh-v-ray-dlya-investorov-448603592.html)

**11.** Халилова Т. (2023). Карабах - центр притяжения для бизнеса и инвестиций. (https://br.az/economy/67214/karabah-centr-prityazheniya-dlya-biznesa-i-investiciy/)

**12.** Халисламов Т.Э. Проблемы и возможности развития туризма в освобожденных территориях Азербайджана. Магистерская Диссертация, Азербайджанский Государственный Экономический Университет, БАКУ – 2022, 96 С.

**13.** https://tourism.gov.az

**14.** https://www.stat.gov.az/source/regions/

**15.** https://www.stat.gov.az/source/system_nat_accounts/

**K.M.Valiyeva**

*PhD student, Azerbaijan State University of Economics*

*ORCID 0009-0001-2497-2985*

## Increasing the role of state support in improving tourism potential in the Karabakh Economıc Region

**Abstract**

*The role of state support in improving the tourism potential of the Karabakh economic region is of great importance. Infrastructure projects implemented by the state, legal and tax incentives for tourism accelerate the development of this area. In particular, the preservation and promotion of the cultural and historical heritage of the territories, as well as the creation of tourist routes, increase the attractiveness of Tourism. At the same time, supporting tourism programs based on culture and history makes a significant contribution to the economic development of the region. The financial resources of the state directed to the region, the creation of employment opportunities for the local population and the development of new areas such as ecotourism contribute to the further expansion of Tourism in Karabakh. In the course of the study, methods of observation, comparative analysis, induction and deduction are used. At the end of the article, the results were noted, suggestions on the topic were put forward and a review of the literature cited in the study was noted.*

***Keywords:*** *tourism, state support, tourism areas, infrastructure, Karabakh.*